# AFAQ CƏFƏROVA

# FORTEPİANO ÜÇÜN ALTI PRELÜD

*Afaq Jafarova*
*Six prelud for piano*

BAKI-2013

Фмо 78
С-43

Üzeyir Hacıbəyli adına
Bakı Musiqi Akademiyasının
QİRAƏTXANASI
11594

# AFAQ CƏFƏROVA

# FORTEPIANO ÜÇÜN ALTI PRELÜD

*Afaq Cəfərovanın təqdim olunmuş fortepiano əsərlərinin ifaçılıq xüsusiyyətlərinə dair tövsiyələr dosent A.Rzayeva tərəfindən Azərbaycan Respublikası Təhsil Nazirliyinin 22.01.13-cü il tarixli 78 saylı əmri ilə çap olunmuş dərs vəsaitində verilmişdir.*

Üzeyir Hacıbəyli adına
Bakı Musiqi Akademiyasının
İNV. № 024156
KİTABXANASI

BAKI-2013

***Rəyçi:*** ***Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi Professor Fərəc Qarayev***

***Redaktor:*** ***Üz.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının“Metodika və xüsusi pedaqoji hazırlıq”kafedrasının dosenti***

***Arzu Rzayeva***

Afaq Məmməd qızı Cəfərova XX əsr Azərbaycan bəstəkarlıq məktəbinin istedadlı nümayəndələrindən biridir. O, zəmanəmizin dahi bəstəkarı, görkəmli pedaqoq, alim Qara Qarayevin sinfində təhsil almış və 1967-ci ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsini bitirmişdir. O, müəllimi haqqında xatirələrində yazır: «Mənim üçün Qara müəllimin adı həyatımın ən mənalı və xoş illəri ilə bağlıdır. Bu illər ona görə xoş illərdir ki, Qara müəllim mənə bəstəkarlıq sənətinin sirlərini açaraq, musiqi bəstələmək kimi ilahi bir möcüzənin qapılarını açdı».

Yaradıcılığa böyük məsuliyyətlə yanaşan Afaq Cəfərova musiqinin hər bir janrında öz sözünü demiş və parlaq əsərlər yaratmışdır. O, müxtəlif janrlarda yazılmış bir sıra əsərlərin müəllifidir: fortepiano üçün variasiyalar, fortepiano üçün prelüdiyalar (1962), fortepiano üçün sonata (1963), iki simli kvartet (1960-1965), polifonik simfoniya (1972), simfoniya №2 (1979), 3 solist və kamera orkestri üçün oda, «Eskizlər» adlı trio və s. Afaq Cəfərovanın diplom işi qismində təqdim etdiyi simli kvartet və böyük simfonik orkestr üçün konserti (1968) janr etibarilə çox nadir təsadüf olunan əsərlərdəndir və o illərdə böyük marağa səbəb olan bir hadisə idi.

Konservatoriyanı bitirdikdən sonra Afaq Cəfərova Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsində aspiranturaya qəbul olunur. O, bir neçə vaxt Qara Qarayevin sinfində assistent vəzifəsində çalışır. Bəstəkar o illəri böyük fərəh hissi ilə xatırlayaraq yazır: «Bu mənim üçün böyük fəxr idi. Mən bu vəzifəni böyük maraqla yerinə yetirirdim və

çalışırdım ki, müəllimin prinsiplərinə tam riayət edim. Mən Qara Qarayevin sinfində oxumaq prosesinin əsl mənasını o dövrdə daha çox anladım».

Aspiranturada oxuduğu illərdə Afaq Cəfərova bir-birindən maraqlı və professional cəhətdən mükəmməl əsərlərlə çıxış edir - 3 solist və kamera orkestri üçün oda (sözləri Məhəmməd Füzuli, Rəsul Rza, Fikrət Qoca), «Rekviem» dram əsəri üçün musiqi, nəfəsli alətlər üçün pyeslər silsiləsi və s.

1972-ci ildə Afaq Cəfərova «Polifonik simfoniya» adlı diplom işi ilə aspiranturanı bitirir və bəstəkarlıq kafedrasında pedaqoji fəaliyyətə başlayır.

Qeyd etmək lazımdır ki, bu illərdə Afaq Cəfərova geniş elmi-metodik fəaliyyətlə məşğul olmuşdur. Onun «Vokal əsərlərində orkestr müşayiəti məsələlərinə dair» tövsiyyələri (1980), «Konservatoriyanın bəstəkarlıq şöbəsində sərbəst üslublu praktik polifoniya proqramına dair» metodik tövsiyyələr (1983), «Polifoniya fənni üzrə magistr dərəcəsi alanlar üçün» proqram (1998) və s. tövsiyyə və proqramları mövcuddur.

Afaq Cəfərova Azərbaycan musiqi mədəniyyətini və bəstəkarlıq məktəbini uzun illər Türkiyədə təmsil etmiş, o, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professorudur.

Afaq Cəfərova öz yaradıcılığında fortepiano musiqisinə az müraciət etmiş, lakin onun bəstələdiyi «Fortepiano üçün variasiyalar» və «Fortepiano üçün 6 prelüdiya» kimi fortepiano əsərlərində fortepiano alətinin bütün incəlikləri, səs və tembr imkanlarının müxtəlif tərəfləri böyük məharətlə istifadə olunur. Bu əsərlərdə onun musiqi dilinin əsas xüsusiyyətləri və yaradıcılıq manerası çox aydın duyulur.

Afaq Cəfərovanın «Fortepiano üçün 6 prelüdiya»sı onun Qara Qarayevin rəhbərliyi altında yazılmış ilk əsəridir. Bu prelüdiyalar bir sıra görkəmli pianoçular tərəfindən ifa olunmuş və daim pianoçu - tələbələrin repertuarında özünəməxsus yer tutur.

# FORTEPİFNO ÜÇÜN PRELÜDLƏR

## I

AFAQ CƏFƏROVA

**Andante moderato**



# II



III

**Allegro sostenuto**






# IV

**Largo**





V

**Andante moderato**




rit...
8vb



# VI








Üzeyir Hacıbəyli adına
Bakı Musiqi Akademiyasının
İNV. № 024156
KİTABXANASI

*Çapa imzalanmış 8.03.2013-cü il*
*Kağız formatı 60x84 1/16, çap vərəqi 1*
*Sifariş 62, sayı 100*

***ADPU-nun mətbəəsi***
***Bakı, Ü.Hacıbəyov küçəsi, 34***
***Tel: (+912) 493-74-10***
***E.mail. ADPU@Box.az***